M.N. Nuriyev

# English – Azerbaijani
# Azerbaijani – English
# Concise Dictionary of Project Management Terms

# İngiliscə – Azərbaycanca
# Azərbaycanca – İngiliscə
# Layihələrin idarə edilməsi terminləri qısa lüğəti

Xəzər Universiteti Nəşriyyatı

Bakı – 2012

Xəzər Universiteti Nəşriyyatı, 2012

Müəllif-tərtibatçı: Məhəmməd N. Nuriyev (prof., t.e.d.)

Redaktorlar: Lyudmila Sotova

Cabir Məmmədli

Dizayn: Zakir N. Yusifoğlu

Nuriyev M.N. English–Azerbaijani, Azerbaijani–English Concise Dictionary of Project Management Terms = İngiliscə–azərbaycanca, azərbaycanca–ingiliscə layihələrin idarə edilməsi terminləri qısa lüğəti. – Bakı: Xəzər Universiteti Nəşriyyatı, 2012. – 150 səh.

658.4/03-dc22

ISBN 978-9952-20-070-6

# Mündəricat

Müqəddimə........................................................4
Abbreviation......................................................6
İxtisarlar...........................................................8
İngiliscə-azərbaycanca terminlər........................11
Azərbaycanca-ingiliscə terminlər .......................90
İstifadə olunmuş mənbələr.................................148

# Müqəddimə

Lüğətdə layihələrin idarə edilməsi sahəsində istifadə olunan 800-dən artıq termin, söz və söz birləşmələrinin ingiliscə–azərbaycanca və azərbaycanca–ingiliscə tərcümələri verilib. Ehtiyac duyulan hallarda termin ingiliscə-azərbaycanca tərcüməsində Azərbaycan dilində qisaca izah olunur. Lüğətdən istifadə edilməsini asanlaşdırmaq məqsədilə azərbaycanca–ingiliscə tərcümədə hər bir sinonim ayrıca bir termin kimi təkrarlanıb. Lüğətə daxil edilmiş terminlər, ilk növbədə, layihələrin idarə edilməsinin ümumi prinsip və yanaşmalarını, layihənin təqvim planının qurulması və təhlilini, maliyyə xərclərini, riskləri, liderlik, idarəetmə və kommunikasiyanı, keyfiyyətin təminatını və idarə edilməsini, layihələndirmənin tətbiqi məsələlərini əhatə edir. Lüğətdə, əsasən, layihələrin idarə edilməsi sahəsində mütəxəssislərin hazırlanmasında aparıcı təşkilatlar olan **ESI International** və **Project Management Institute-**nun mənbələrindən, eləcə də, Azərbaycanda bu sahədə ixtisaslaşan təşkilatların və mütəxəssislərin təcrübəsindən istifadə edilib.

## Azərbaycan əlifbası

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| A | B | C | Ç | D | E | Ə |
| F | G | Ğ | H | X | I | İ |
| J | K | Q | L | M | N | O |
| Ö | P | R | S | Ş | T | U |
| Ü | V | Y | Z | | | |

## English alphabet

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| A | B | C | D | E | F | G |
| H | I | J | K | L | M | N |
| O | P | Q | R | S | T | U |
| V | W | X | Y | Z | | |

# Abbreviation

**ACWP** Actual Cost of Work Performed

**BCWP** Budgeted Cost of Work Performed

**BCWS** Budgeted Cost of Work Scheduled

**CCB** Change Control Board

**CPM** Critical Path Method

**CPN** Critical Path Network

**EAC** Estimate at Completion

**EF** Early Finish Date

**EMV** Expected Monetary Value

**EPM** Enterprise Project Management

**ES** Early Start Date

**EV** Earned Value

**EVM** Earned Value Management

**FMEA** Failure Modes and Effect Analysis

**KPIs** Key Performance Indicators

**KSFs** Key Success Factors

**LCC** Life Cycle Cost

**LF** Late Finish Date

**LS** Late Start Date

**MPM** Modern Project Management

**OBS** Organizational Breakdown Structure

**PBS** Project Breakdown Structure

**PDM** Precedence Diagramming Method

**PERT** Program Evaluation and Review Technique

**PMB** Performance Measurement Baseline

**PMIS** Management InformationSystem

**PRD** Project Requirements Document

**RAM** Responsibility Assignment Matrix

**RBS** Resource Breakdown Structure

**RF** Remaining Float

**RFQ** Request for Quotation

**RFP** Request for Proposal

**SDI®** Strength Deployment Inventory

**SV** Schedule Variance

**SWOT** Strength, Weaknesses, Oportunities and Threats Analisys

**TCPI** To-Complete Performance Index

**WBS** Work Breakdown Structure

# İxtisarlar

**DNŞ** dəyişikliklərə nəzarət şurası
**ƏTBV** ən tez başlama vaxtı
**GMD** gözlənilən maliyyə dəyəri
**GZİTA** güclü və zəif tərəflərin, imkan və təhlükələrin analizi
**HDÜX** həyat dövrünün ümumi xərcləri
**İBQV** işin bitməsinə qalmış vaxt
**İD** icra olunmuş dəyər (işlərin həcmi)
**İƏP** icraetmənin əsas planı
**İİBD** icra olunmuş işin büdcə dəyəri
**İİFX** icra olunmuş işlərə çəkilən faktiki ümumi xərclər
**İİS** işlərin iyerarxik strukturu
**İTEX** işin (layihənin) tamamlanmasında ehtimal olunan xərclər
**KFS** keyfiyyət funksiyalarının strukturlaşdırılması
**KYŞ** kritik yol şəbəkəsi
**KYÜ** kritik yol üsulu
**QEV** qalan ehtiyat vaxt
**QS** qiymətlər sorğusu
**LİİS** layihələrin idarə edilməsinin informasiya sistemi
**LİMM** layihələrin idarə edilməsinin müasir metodologiyası
**LİS** layihənin iyerarxik strukturu
**LTS** layihə tələbləri sənədi

**MDİ** mənimsənilmiş dəyərin idarə edilməsi
**MDN** münasibətlərin dərketmə nəzəriyyəsi
**MLİ** müəssisə layihələrinin idarə edilməsi
**MMƏG** müvəffəqiyyəti müəyyən edən əsas göstəricilər
**MÖM** məsuliyyətlər (öhdəliklər) matrisi
**NNT** nasazlıqların və onların nəticələrinin təhlili
**PFDF** planlaşdırılmış və faktiki dəyər arasındakı fərq
**PX** planlaşdırılmış xərclər
**PİBD** planlaşdırılmış işin büdcə dəyəri
**Pİİ** planın icra indeksi
**SÖRRV** spesifik, ölçülə bilən, razılaşdırılmış, real, vaxtla məhdudlaşdırılan
**ŞGTN** şəxsiyyətin güclü tərəfləri nəzəriyyəsidir
**Tİİİ** tamamlanma işlərinin icrası indeksi
**TİSB** təşkilati strukturda işlərin bölgüsü
**TM** təklif üçün müraciət
**TSİFB** təşkilati strukturda işlərin fərdlər arasında bölgüsü

# İngiliscə-azərbaycanca terminlər[1]

# A

**Accept** qəbul etmək

**Action Plan** fəaliyyət planı

Layihə tapşırıqlarının təsviri, kim tərəfindən və nə vaxt yerinə yetiriləcəyini əks etdirən təfsilatlı plan.

**Activity 1.** fəaliyyət; **2.** iş

Layihənin yerinə yetirilməsi üçün gərək olan işlərin tərkib hissəsi. Fəaliyyətin həyata keçirilməsi üçün müəyyən vaxt və digər resurslar sərf olunur. Fəaliyyət ayrı-ayrı tapşırıqlardan ibarət ola bilər.

**Activity Code** fəaliyyətin kodu

Layihə işləri strukturunun (LİS) tərkibində işlər paketi və ya onun tərkib hissəsinin unikal identifikatoru.

**Activity Duration** fəaliyyətin müddəti

Fəaliyyətin başa çatdırılması üçün tələb olunan vaxt (illər, aylar, həftələr, günlər). Bu vaxtın qiymətləndi-

[1] Bəzi terminlərin azərbaycanca izahı verilmişdir.

rilməsi zamanı işin mahiyyəti və lazım olan resurslar nəzərə alınır.

**Activity List** fəaliyyətlərin siyahısı

**Activity-on-Arc** "fəaliyyət-qövs"

"Fəaliyyət-qövs" tipli əməliyyatların məntiqi ardıcıllığı sxemi; layihənin şəbəkə təsviri. "Fəaliyyət-qövs" formatında layihənin fəaliyyətləri qövslərlə təsvir edilir. Təpələr layihə fəaliyyətlərinin başlanmasını və/və ya başa çatmasını qeyd edən və dolayı yolla təpələr arasında olan ardıcıllıq əlaqələrini modelləşdirən hadisələrdir (və ya əsas mərhələlərdir).

**Activity-on-Arrow** "fəaliyyət-ox"

Oxlar diaqramı; Layihənin şəbəkə formasında təsviri. Layihəyə aid olan fəaliyyətlər (işlər) şəbəkədə oxlar vasitəsilə təsvir edilir. Ox işarəsinin başlanğıc nöqtəsi işin başlanmasını, ucu isə işin başa çatmasını qeyd edir. Fəaliyyətlər və işlər təpələr adlandırılan nöqtələrdə birləşir və bu birləşmələr işlərin icra olunma ardıcıllığını əks etdirir. Təpələr, bir qayda olaraq, çevrə şəklində təsvir edilir.

**Activity-on-Node** "fəaliyyət-təpə"

"Fəaliyyət-təpə" tipli əməliyyatların məntiqi ardıcıllığı sxemi; layihənin şəbəkə təsviri. Layihədə icra olunacaq işlər şəbəkə qrafın təpələri, işlərin yerinə yetirilməsi ardıcıllığı və onlar arasındakı əlaqələr isə istiqamətləndirilmiş qövslər (oxlar) vasitəsilə əks etdirilir. Təpələr çevrə və ya düzbucaq şəklində təsvir edilir və fəaliyyətin başlanmasını (başa çatmasını) qeyd edir.

**Activity Sequencing** fəaliyyətlərin ardıcıllığı

Fəaliyyətlər arasındakı məntiqi əlaqələrin müəyyən edilməsi. Layihə şəbəkəsinin məntiqinə əsaslanaraq, hər bir fəaliyyətin başlanma vaxtının düzgün müəyyən edilməsi məqsədilə layıhənin tərkib elementləri (işlər, fəaliyyətlər, tapşırıqlar) arasındakı asılılıqları müəyyən edir.

**Actual Cost** faktiki xərclər

**Actual Cost of Work Performed (ACWP)** icra olunmuş işlərə çəkilən faktiki xərclər (İİFX)

**Actual Finish Date** faktiki bitmə vaxtı

Fəaliyyətə dair işin faktiki bitmə vaxtı.

**Actual Start Date** faktiki başlanma vaxtı

Fəaliyyətə dair işin faktiki başlanma vaxtı.

**Adjourning** komanda işinin bitməsi

Komandanın inkişaf fazası.

**Affinity Diagramming** qruplaşma diaqramı

İdeyalar irəli sürülür, sonra bir-biri ilə əlaqəli olan ideyalar əsasında qruplar yaradılır, onların adları müəyyən olunur və son nəticədə ideyalar ayrı-ayrı qruplara daxil edilir.

**Aligning People** insanların məqsəd-yönümlü istiqamətləndirilməsi və uzlaşdırılması

**Altruistic-Nurturing (Blue)** altruist-qayğıkeş (mavi) üslub

Başqalarına himayədarlıq, inkişafı və xoşbəxtliyi üçün qayğı. Aşağıdakılarla xarakterizə olunur: başqalarına kömək göstərilməsi yollarının axtarışı, ehtiyaclarına cavab verməsi və açıq olması, onlara yük olmasından çəkinməsi, həyatlarının yüngülləşdirilməsi üçün çalışması, hüquqlarının müdafiəsi, onların dəyərləndirildiyinə əmin olması və potensiallarının reallaşmasına əmin olması.

**Analytical-Autonomizing (Green)** analitik-sərbəst (yaşıl) üslub

Fərdiyyətçilik, şəxsi gücünə əsaslanmaq, müstəqillik; işlərin düzgün fikirləşilməsinə qayğı; mənalı qaydanın yaradılmasına və onun təminatına qayğı. Aşağıdakılarla xarakterizə olunur: obyektivlik, emosiyalara nəzarət edilməsi, müfəssəl, ehtiyatlı, praktik, ciddi, qəti, ədalətli, özünün hakimi olması, işə başlamazdan əvvəl hər seyi nəzərdən keçirməsi.

**Analogous Estimating** analoqlara görə qiymətləndirmə

Qarşıda duran əməliyyatların parametrlərinin qiymətləndirilməsi üçün əvvəllər icra olunmuş oxşar əməliyyatların tərkib, dəyər, büdcə, müddət və ya digər ölçülən eyni tipli parametrlərin qiymətlərindən istifadə edən qiymətləndirmə üsulu.

**Approved Change Request** təsdiqlənmiş dəyişiklik müraciəti

**Appraisal Cost** qiymətləndirmə xərcləri

**Arrow** ox işarəsi

Fəaliyyətin qrafik təsviri.

**Arrow Diagramming Method** oxlar diaqramı üsulu

Şəbəkə qrafikinin, təqvimi planın, işlər cədvəlinin ox işarələri ilə qrafik təsviri.

**As-Late-as-Possible** mümkün qədər gec

Layihənin hər bir fəaliyyətinin ən gec başlama vaxtına əsaslanan təqvim planı.

**Assertive-Nurturing (Red-Blue)** inamlı-qayğıkeş (qırmızı-mavi) üslub

Liderlik və tapşırığın icrası vasitəsilə başqalara himayədarlıq, onların inkişafı, əmin-amanlığı üçün qayğı. Aşağıdakılarla xarakterizə olunur: başqalarına kömək edilməsi üçün imkanların aktiv axtarışı; onların maksimum inkişafı və yüksəlişi üçün zəmin yaradılmasına digərlərini sövq etməsi, əmin-amanlığının və təminatının yaradılmasına dair təkliflərə açıq olması; uğurlar yolunda olan maneələrin öhdəsindən gəlmək üçün ruh yüksəkliyinin və dəstəyin yaradılması.

**Assertive-Directing (Red)** inamlı-idarəedici (qırmızı) üslub

Tapşırığın başa çatdırılması və arzu olunan nəticələrin əldə edilməsi naminə insanların təşkili, vaxt, maliyyə və digər resurslar üçün qayğı. Aşağıdakılarla xarakterizə olunur: hakimiyyət, səlahiyyət və liderlik vəzifələri üçün rəqabət etmək, inandırmadan istifadə edilməsi, imkanlar üçün hazır olması, əldə edilmiş mükafatlara hüququ olduğuna iddia edilməsi, çəti-

nliklərin qəbul edilməsi, riskin qəbul edilməsinə arzu olunan və gərək olan hal kimi baxması.

**Assessing Project Status** layihənin vəziyyətinin (statusun) qiymətləndirilməsi

50/50 qaydası – tapşırıq başlananda hesabat verilir ki, 50 faiz başa çatıb, başa çatanda isə hesabat verilir ki, 100 faiz başa çatdırılıb; 20/80 qaydası – tapşırıq başlananda hesabat verilir ki, 20 faiz başa çatıb; 0/100 qaydası – ən konservativ yanaşmadır və hesab edilir ki, tapşırıq başa çatdırılmamış o, heç bir dəyər daşımır.

**As-Soon-as-Possible** mümkün qədər tez

Layihənin hər bir fəaliyyətinin ən tez başlama vaxtına əsaslanan təqvim planı.

**Authority 1.** səlahiyyətlər; **2.** hakimiyyət

**Availability** mümkünlük

**Avoid** çəkinmək

Təhlükənin aradan qaldırılması və ya onun layihəyə təsir etməsi ehtimalının aradan götürülməsi.

# B

**Backward Pass** əks keçid (sondan başlanğıca)

Natamam işlərin gec başlanma və bitmə vaxtlarının sondan başlanğıca tərəf hesablanması.

**Ballpark Estimate** təqribi qiymətləndirmə

**Baseline (plan) 1.** əsas plan; **2.** ilkin cədvəl; **3.** ilkin qrafik

Layihə, işlər paketi və ya fəaliyyətin ilkin planı (təsdiq olunmuş dəyişikliklərlə). Kənarlaşmaların müqayisə olunacağı nominal plan.

**Baseline Finish Date** ilkin planlaşdırılmış başa çatma vaxtı

Layihə, işlər paketi və ya fəaliyyətin ilkin müəyyən olunmuş başa çatdırılma vaxtı (təsdiq olunmuş dəyişikliklərlə).

**Baseline Start Date** ilkin planlaşdırılmış başlanma vaxtı

Layihə, işlər paketi və ya fəaliyyətin ilkin müəyyən olunmuş başlanma vaxtı (təsdiq olunmuş dəyişikliklərlə).

**Benchmarking** nümunə ilə müqayisə

İşlərin icra etmə standartlarını müəyyən etmək məqsədilə layihə işlərin icrasının digər oxşar layihələrlə müqayisəsi.

**Benefit-Cost Ratio** fayda-xərc nisbəti

**Bid** təklif

Tender və ya təklif sənədində təsvir olunmuş işlərin əvvəlcədən müəyyən olunmuş qiymətlərdə yerinə yetirilməsi təklifi.

**Block Diagram** blok-sxem

Sistemin və ya altsistemlərin tərkib hissələrı arasındakı əlaqələrin qrafik təsviri.

**Borrowed Behavior Pattern** götürülmüş davranış nümunəsi

Dəyərimiz barədəki hissiyyatımızı yaxşılaşdırmayan, lakin əsas motivasiyalarımızla ziddiyətdə olmayan davranış nümunəsi.

**Bottom-up Estimating** "aşağıdan yuxarıya" qiymətləndirmə

İşin elementinin qiymətləndirmə üsulu. İş daha kiçik hissələrə bölünür. İşin hər bir hissəsinin icra edilməsi üçün gərək olanlar qiymətləndirilir və işin bu elementinə aid olanlar cəmlənir.

**Brainstorming 1.** "beyin fırtınası"; **2.** "beyin həmləsi"

Spontan ideyaların hasil edilməsi.

**Breakdown** hissələrə ayırma

**Budget** büdcə

Hər hansı bir planlaşdırılmış əməliyyatın, işlərin iyerarxik strukturun elementinin və ya bütövlükdə layihənin təsdiq edilmiş dəyəri.

**Budget at Completion 1.** layihənin dəyəri; **2.** tamamlamada büdcə; **3.** layihəyə ayrılmış ümumi büdcə

Layihənin bütün fəaliyyətlərin təsdiq olunmuş xərclərinin güman edilən qiymətlərinin cəmi (hər hansı əlavə xərcləri də nəzərə almaqla).

**Budgeted Cost of Work Performed (BCWP)** icra olunmuş işin büdcə dəyəri (İİBD)

**Budgeted Cost of Work Scheduled (BCWS)** planlaşdırılmış işin büdcə dəyəri (PİBD)

**Building Relationships** əlaqələrin qurulması

**Bureaucratic Authority 1.** bürokratik hakimiyyət;
**2.** səlahiyyətlər

Təşkilatın qaydalarına, siyasətə, prosedurlara və formalara dair biliklərə və onlardan istifadə edilməsinə əsaslanır.

**Business Agreement 1.** biznes razılaşma; **2.** müqavilə

**Business Risk** biznes riski

Biznes fəaliyyəti ilə əlaqədar mənfi və ya müsbət risklər.

# C

**Capacity 1.** imkanlar; **2.** məhsuldarlıq; **3.** istehsal gücü

Layihənin yerinə yetirilməsi üçün əldə olan bütün mövcud resurslar; icrası mümkün olan işlərin həcmi.

**Capacity Analysis** məhsuldarlığın (istehsal gücünün) analizi

Təşkilatın, prosesin, maşın və avadanlıqların istehsal güclərinin və məhsuldarlığın analizi. İlk növbədə, əlavə işin görülməsi imkanlarının aşkarlanması məqsədi ilə yerinə yetirilir.

**Capacity Matrix** qabiliyyətlər matrisi

Şəxsin qabiliyyətini, biliklərini və davranışlarını əks etdirir.

**Capacity Planning** məhsuldarlığın (istehsal gücünün) planlaşdırılması

Mövcud resurslar və bacarıqlar daxilində verilmiş zaman ərzində yerinə yetirə biləcəyi işin həcminin əvvəlcədən qiymətləndirilməsi.

**Cautious-Supporting (Green-Blue)** tədbirli-dəstəkləyici (mavi-yaşıl) üslub

Ədalət üçün düşünülmüş dəstək; özündə və başqalarda müstəqilliyin inkişafı və möhkəmlənməsi üçün qayğı. Aşağıdakılarla xarakterizə olunur: başqaları-

nın əmin-amanlığının yaxşılaşdırması və qoruması üçün effektiv proses və resursların qurulması, daha geniş müstəqillik və sərbəstlik üçün dəstəyin verilməsi, ədalətli prinsiplər uğrunda mübarizə, yüksəlişi təmin edən fəaliyyətlərin dəstəyi.

**Cause-and-Effect Diagram** səbəb və nəticə diaqramı (İşikava diaqramı)

**Change Acceptance** dəyişikliyin qəbul edilməsi

İşlərin yeni üsulla yerinə yetirilməsinə və gələcəyə diqqət yetirilir.

**Change Acknowledgement** dəyişikliyin tanınması

Dəyişikliyin labüdlüyünün tanınması.

**Change Control** dəyişikliklərin idarə edilməsi və nəzarət

Layihənin həyat dövrü ərzində dəyişikliklərin idarə edilməsi üçün müəyyən olunmuş qaydalar və prosеslər; dəyişikliklərə nəzarət və menecment prosesi.

**Change Control Board (CCB)** dəyişikliklərə nəzarət şurası (DNŞ)

Dəyişikliklərin təsdiqlənməsi və ya rədd edilməsi üçün yaradılmış şura.

**Change Control System** dəyişikliklərə nəzarət sistemi

Rəsmi layihə sənədlərinə düzəlişlərin edilmə qaydalarını müəyyən edən formal qaydalar toplusu.

**Change Management Plan** dəyişikliklərin idarə edilməsi planı

Yeni prosedurların və sistemin təşkilata uyğunlaşdırılması və dəyişikliklərin əlavə edilməsi prosesinin idarə edilməsini təmin edən və əvvəlcədən sənədləşdirilmiş yanaşma.

**Change Rejection** dəyişikliyin rədd edilməsi

Mövcud vəziyyətin saxlanılması cəhdi.

**Change Request** dəyişiklik haqda müraciət

**Change Resistance** dəyişikliyə müqavimət

Hirsli, narazı, dilxor reaksiya.

**Change Support** dəyişikliyə dəstək

**Charismatic Authority 1.** qəlblərin hakimliyinə əsaslanan hakimiyyət; **2.** şəxsiyyətin müstəsna xüsusiyyətlərinə əsaslanan hakimiyyət

Fərdin şəxsiyyətindən irəli gələn hakimiyyət və səlahiyyətlər.

**Client 1.** müştəri; **2.** sifarişçi

**Closeout Phase** başa çatdırılma fazası

**Closing Processes** başa çatdırılma prosesləri

Layihənin və ya fazanın formal başa çatdırılması üçün yerinə yetirilən işlər.

**Coercive Authority** məcbur etmək səlahiyyətləri

**Colloborative Negotiation** əməkdaşlıq danışığı

Danışığı “Mən uduram/Siz udursunuz” ssenarisi ilə aparmaq cəhdi.

**Colocation** yanbayan, eyni yerdə yerləşmə

**Communicating** kommunikasiya

**Communication Management Plan** kommunikasiyanın idarəetmə planı

**Communication Metrics** kommunikasiya göstəriciləri

Layihə kommunikasiya göstəriciləri kimi gözlənilən və faktiki göstəricilərdən, istifadə etmə faizindən, mümkün vaxtdan, təkrar işdən, boşdayanmadan, defektlərdən, müştəri məmnunluğundan və s. istifadə edilir.

**Comparability** müqayisə oluna bilmə

**Competitive Negotiation** rəqabətli danışıq

Danışığın "Mən uduram/Siz uduzursunuz" ssenarisi ilə aparılması.

**Compromising** kompromisə gəlmək

**Concept Phase** layihənin ideya fazası

Həmçinin, iqtisadi analiz fazası, həyata keçirilməsinin mümkünlüyünün yoxlanılması fazası, iqtisadi-texniki əsaslandırma mərhələsi.

**Configuration Management** konfiqurasiyanın idarə edilməsi

**Conflict 1.** konflikt; **2.** münaqişə; **3.** ziddiyyət

**Conflict Management** konfliktin idarəetməsi

**Constraint** məhdudiyyət

**Contingency** gözlənilməz hallar üçün təminat

**Contingency Allowance** gözlənilməz hallar üçün nəzərdə tutulmuş əlavə vaxt və maliyyə

**Contingency Plan** gözlənilməz hallar üçün nəzərdə tutulmuş alternativ strategiyalar

**Contingency Reserves** gözlənilməz hallar üçün ehtiyatlar

Layihə xərclərinin və yerinə yetirilmə müddətinin nəzərdə tutulduğundan artıq olmasının və layihənin icrası göstəricilərinin yayınmasının təsirinin azaldılması üçün gərək olan vəsait və vaxt.

**Contract Closeout** kontraktın başa çatdırılması

**Contract Work Breakdown Structure** İİS-nin müəyyən kontrakta aid hissəsi

Layihə işlərin iyerarxik strukturunun tərkib hissəsi, kontraktın yerinə yetirilməsi üçün görüləsi işlərin təsviri.

**Control 1.** nəzarət; **2.** idarəetmə

**Control Account** xərclərə nəzarət hesabı

Faktiki xərclərin əldə edilmiş dəyər ilə müqayisə etmə nöqtəsi – müəyyən olunmuş iş paketi; idarəetmə nəzarət nöqtəsi.

**Control Chart** nəzarət qrafiki

Prosesin davranışını əks etdirən qrafiklər. Prosesin göstəricilərinin müəyyən olunmuş nəzarət sərhədlərinə nisbətən və zamana uyğun qrafik təsviri. Prosesin nəzarət altında olub-olmamadığını yoxlamaq üçün istifadə olunur.

**Control Gate** layihənin gedişatını yoxlama nöqtəsi

**Core Project Team** layihənin əsas komandası

**Corrective Action 1.** düzəldici tədbir; **2.** təshihedici tədbir

**Cost Baseline** zamana görə bölüşdürülmüş büdcə

Faktiki xərcləri planlaşdırılmış xərclərlə müqayisə etmək üçün xüsusi hazırlanmış və zaman ilə uzlaşdırılmış büdcə.

**Cost Control** büdcə dəyişikliklərinə nəzarət

**Cost Overrun** artıq xərcləmə

Faktiki xərclərin planlaşdırılmış xərclərə nisbətən artıqlığı.

**Cost Performance Baseline 1.** planlaşdırılmış xərclər; **2.** zamana görə bölüşdürülmüş büdcə

Xərclərin idarə edilməsi, monitorinqi və ölçülməsi üçün istifadə olunan zamana görə bölüşdürülmüş büdcə.

**Cost Performance Index** xərclərin icra indeksi

Planlaşdırılmış və faktiki xərclərin nisbətidir. Xərclər baxımından layihənin icrasının effektivliyini ölçür.

**Cost Performance Measurement Baseline** planlaşdırılmış xərclər və məqsədlər

Gələcək xərclərin proqnozu, təhlili və müqayisəsi üçün istifadə olunan büdcə xərcləri və ölçülən məqsədlər; xərclərin səmərəliliyini ölçmək üçün istifadə edilən baza göstəriciləri.

**Cost-Reimbersable Contracts** xərclərin ödənilməsi kontraktları

Xərclərin ödənilməsi kontraktında satıcının faktiki xərcləri və mənfəəti təmin edən əlavə hissə ödənilir.

**Cost Underrun** faktiki xərclərin planlaşdırılmış xərclərə nisbətən az olması

**Cost Variance 1.** xərclər fərqi; **2.** kənarlaşma

Başa çatdırılmış işin büdcədə nəzərdə tutulmuş dəyəri ilə faktiki xərclər arasındakı fərq.

**Crash Cost** layihə cədvəlinin sıxlaşdırılması xərcləri

**Crashing** layihə cədvəlinin sıxlaşdırılması

Fəaliyyətlərin ardıcıllığını dəyişməyərək, resursları əlavə etmək yolu ilə layihə müddətinin azaldılması.

**Critical Activity** kritik fəaliyyət (iş)

Kritik yolda yerləşən fəaliyyət (iş).

**Critical Path** kritik yol

Layihənin ən tez başa çatma müddətini müəyyən edən işlər toplusu.

**Critical Path Method (CPM)** kritik yol üsulu (KYÜ)

Ən kiçik çevikliyi (ehtiyat vaxtı) olan fəaliyyətlər ardıcıllığının (yolun) təhlili əsasında layihənin müddətini proqnozlaşdırmaq üçün istifadə olunan şəbəkə analizi üsulu.

**Critical Path Network (CPN)** kritik yol şəbəkəsi (KYŞ)

**Critical Risk** kritik risk (böhranlı)

**Critical Success Factors** uğur qazanmanın həlledici amilləri

**Cross-Functional Team 1.** matris strukturlu komanda **2.** çoxprofilli komanda

Ümumi məqsəd üçün işləyən müxtəlif sahənin mütəxəssislərindən ibarət komanda. Komandaya maliyyə, marketinq, istehsalat prosesləri, insan resursları və digər sahələrin mütəxəssisləri cəlb olunur, o cümlədən kənardan.

**Cumulative Cost** kumulyativ xərclər (toplanmış)

**Current Start Date** işin başlanma vaxtının hazırkı qiyməti

**Customer 1.** sifarişçi; **2.** müştəri

Layihənin yerinə yetirilməsini maliyyələşdirən şəxs və ya qurum.

**Customer Acceptance** sifarişçi tərəfindən qəbuletmə

**Customer Requirements** sifarişçinin tələbləri

Təklif üçün müraciətdə müştərinin müəyyən etdiyi layihənin spesifikasiyası və/və ya nəticələrin atributları.

**Cycle 0** sıfır mərhələ

Layihənin siyasi, texniki, iqtisadi və praktiki mümkünlüyünü müəyyən edən ilkin mərhələ.

# D

**Data Date** verilənlərin ayrılma tarixi

Ötən dövrün faktiki verilənlərini gələcək planlaşdırılmış verilənlərdən ayırmanın zaman nöqtəsi.

**Decision** qərar

**Decision Making** qərarların qəbul edilməsi

**Decision Tree** qərarlar ağacı

Qərarlar və onlarla əlaqəli nəticələr arasındakı asılılıqları əks etdirən ağacvari struktur.

**Decomposition 1.** bölünmə; **2.** dekompozisiya

Sistemin daha kiçik hissələrə bölünməsi.

**Defect** qüsur (keyfiyyətsizlik)

**Deliverable** layihənin nəticələri

Layihənin və ya onun tərkib hissəsinin real, ölçülən, yoxlanıla bilən nəticələri.

**Delphi technique** Delfi üsulu

Ekspertlərin fərdi fikirlərin öyrənilməsi və ümumiləşdirilməsi üsulu; ekspertlər panelinə əsaslanan interaktiv proqnozlaşdırma üsulu. Üsulun adı qədim yunan Delfi orakul – qeybdən xəbər verən kahin ilə bağlıdır.

**Dependency** asılılıq

**Dependency Network** məntiqi əlaqələr şəbəkəsi

**Dependent Event** asılı hadisə

Baş verməsi digər hadisənin baş verməsindən asılı olan hadisə.

**Dependent Tasks** bir-birindən asılı tapşırıqlar

Burada bir tapşırıqın başlanması və ya başa çatdırılması digər tapşırıqın başa çatdırılmasından və ya bitməsindən asılıdır.

**Detailed Schedule** təfsilatlı (müfəssəl) iş cədvəli

**Development Phase** layihənin işlənilməsi fazası

**Digraph** diqraf

İstiqamətləndirilmiş qraf.

**Direct Overhead** əlavə xərclərin layihəyə aid olunan hissəsi

**Direct Project Cost** birbaşa layihəyə aid olunan xərclər

**Directive Structure** direktiv struktur

Bir rəhbər bütün komanda üzvlərinin fəaliyyətlərini istiqamətləndirir.

**Discrete Work Package** ayrıca iş paketi

İşin icrasını qiymətləndirmək üçün istifadə olunan, müəyyən olunmuş başlanma və sona çatma vaxtı olan qısamüddətli və ölçülə bilən tapşırıq.

**Distributed Budget** bölüşdürülən büdcə

**Documentation 1.** sənədlər; **2.** sənədləşmə

**Document Control** sənədləşmənin nəzarət sistemi

Layihə sənədləşməsinin icrası və nəzarət sistemi.

**Drop-Dead Date** ən son müddət

**Dummy Activity** fiktiv iş

**Duration** müddət

Layihənin hər hansı bir elementin başa çatdırılması üçün tələb olunan iş dövrləri (saatlar, günlər, iş həftələri).

**Duration Compression** müddətin qısaldılması

Layihənin tərkibini dəyişmədən layihə cədvəlinin sıxlaşdırılması.

# E

**Early Finish Date (EF)** ən tez başa çatma vaxtı

**Early Start Date (ES)** ən tez başlama vaxtı (ƏTBV)

**Early Warning System** vaxtında xəbərdarlıq etmə sistemi

**Earned Value (EV)** icra olunmuş (mənimsənilmiş) dəyər (işlərin həcmi) (İD)

Layihə işlərinin gedişatının analizi, işlərin yerinə yetirilməsinin və xərclərin ilkin layihə göstəriciləri ilə müqayisəsi.

**Earned Value Management (EVM**) mənimsənilmiş dəyərin idarə edilməsi (MDİ)

Layihənin yerinə yetirilməsinin və irəliləyişin obyektiv qiymətləndirilməsi üçün tərkibi, təqvim planı və resurslarını inteqrasiya edən, layihə idarəetməsinin planlaşdırma, monitorinq və nəzarət üsulu.

**Earned Value Technique** mənimsənilmiş dəyər üsulu

Layihənin yerinə yetirilməsini qiymətləndirən, işlərin gedişatının analizinə əsaslanan üsullar və yanaşmalar.

**Effort** işin həcmi

Layihə fəaliyyətinin və ya elementinin icra olunması üçün tələb olunan iş vahidləri (işçi heyətinin saatları, günləri, həftələri).

**Effort Remaining** yerdə qalmış iş dövrləri

**Elapsed Time** faktiki vaxt

Fəaliyyətin, əməliyyatın, işin və ya istehsal dövrünün başlanmasından bitənədək ötən faktiki vaxt.

**Encouraging 1.** həvəsləndirmə; **2.** dəstəkləmə

**End Activity** sonuncu, davamı olmayan iş

**End Product** son nəticə

Layihə işindən irəli gələn real nəticə.

**End User** son istifadəçi

Layihə məhsulundan və ya xidmətindən bilavasitə istifadə edən.

**Enhance** gücləndirmək

İmkanın gözlənilən dəyərinin gücləndirilməsi.

**Enterprise Project Management (EPM)** müəssisə layihələrinin idarə edilməsi (MLİ)

**Entrusting** səlahiyyətin verilməsi

**Estimate** gözlənilən nəticənin qiymətləndirilməsi

**Estimate at Completion (EAC) 1.** işin (layihənin) tamamlanmasında ehtimal olunan xərclər(İTEX); **2.** tamamlanmada gözlənilən qiymət

Layihənin, fəaliyyətlər toplusunun və ya ayrıca bir fəaliyyətin başa çatdırıldığı zaman gözlənilən ümumi

xərclər. Layihənin bu günədək olan icrasına əsaslanaraq proqnozlaşdırılan ümumi xərclər.

**Estimated Cost** gözlənilən xərclər

**Estimate to Complete** tamamlanma xərclərinin proqnozu

Layihənin, fəaliyyətlər toplusunun və ya ayrıca bir fəaliyyətin başa çatdırılması üçün gərək olan əlavə məbləğ.

**Estimated Final Cost** güman edilən ümumi xərclər

Layihənin başa çatdırılmasına çəkiləcək ümumi xərclərin ehtimal (güman) edilən qiyməti.

**Estimating 1.** qiymətləndirmə; **2.** proqnoz

Konkret nəticənin əldə edilməsi üçün gərək olacaq xərclərin, resursların və iş cədvəlinin proqnozu.

**Estimating Costs** dəyərin (xərclərin) qiymətləndirilməsi

Verilmiş zamanda mümkün olan informasiya əsasında gözlənilən nəticənin xərclər baxımından proqnozlaşdırılması.

**Event 1.** hadisə; **2.** nəticə

Resursları istifadə etməyən fəaliyyət; layihənin kritik mərhələsini qeyd etmək üçün istifadə edilən bir və ya bir neçə işin sonu. *Məsələn:* qərarın qəbul edilməsi nöqtəsi.

**Event Chart** mərhələlər qrafiki

Zaman şkalasında əsas mərhələlərin başlanma və başa çatma vaxtlarının əks etdirilməsi üçün istifadə

olunan şəbəkə qrafiki. Planlaşdırılmış hadisələr içi boş, başa çatmış hadisələr isə qalın üçbucaqlarla təsvir edilir. Təkrarən planlaşdırılan və vaxtı dəyişən hadisələr romb şəklində təsvir edilir.

**Event-on-Node 1.** "hadisə-təpə"; **2.** "hadisə-qovşaq"

Hadisələrin qrafın təpələrində və şəbəkənin qovşaqlarında təsviri. Hadisələr (nəticələr) çevrə və ya düzbucaqlarla qeyd olunur.

**Event-Oriented Schedule** nəticələrə (hadisələrə) yönəlmiş iş qrafiki

**Exception 1.** tələblər fərqi; **2.** istisna

Müştərinin tələbləri ilə kontraktorun təklifində qeyd etdiyi tələblər arasındakı fərq.

**Exception Report** ciddi kənarlaşmaların hesabatı

Əsas plandan ciddi kənarlaşmaları qeyd edən sənəd.

**Exception Reporting** mühüm kənarlaşmalarının sənədləşdirilməsi prosesi

**Executing Processes** icra etmə prosesləri

Layihədə nəzərdə tutulmuş işlərin başa çatdırılması üçün təşəbbüs edilən hər hansı bir fəaliyyət və ya proses.

**Execution** icra

**Execution Phase** layihənin icrası fazası

**Exit Strategy** çıxış strategiyası

**Expected Monetary Value (EMV)** gözlənilən (ehtimal edilən) maliyyə dəyəri (GMD)

**Expected Time** gözlənilən (ehtimal edilən) vaxt

İşin icrasına gərək olacaq gözlənilən (ehtimal edilən) vaxt.

**Expected Value** gözlənilən (ehtimal edilən) maliyyə dəyəri

**Expenditure 1.** xərc; **2.** məxaric

Layihənin normal gedişatında çəkilən xərclər.

**Expense 1.** xərc; **2.** məsrəf

Verilmiş zaman ərzində istifadə edilən aktivlər və xidmətlər.

**Expenses** xərclər

Layihənin yerinə yetirilməsi və istismarı zamanı çəkilən gündəlik xərclər.

**Expert Authority** ekspertin (mütəxəssisin) nüfuzu

**Expert Interview** ekspert ilə müsahibə

**Expert Judgement** ekspert rəyi (fikirlər və tövsiyələr)

**External Dependency** xarici asılılıq

Layihə və qeyri-layihə işləri arasındakı asılılıqlar.

**External Failure Cost** xarici imtinaların xərcləri

**External Feedback** xarici əks əlaqə

**External Risk** xarici (kənar) risk

# F

**Facilitating Ethical Conduct** etik davranışın dəstəyi, asanlaşdırılması

**Failure 1.** nasazlıq; **2.** iş qabiliyyətinin itirilməsi

**Failure Modes and Effect Analysis (FMEA)** nasazlıqların və onların nəticələrinin təhlili (NNT)

**Fast-Tracking** sürətli layihələndirmə

Normal hallarda ardıcıl yerinə yetirilən fəaliyyətlərin üst-üstə düşməsi yolu ilə işlər cədvəlinin sıxlaşdırılması.

**Feasibility 1.** mümkünlük; **2.** yerinə yetirilə bilmə imkanı

**Feedback** əks əlaqə

Mövcud vəziyyət, əldə edilmiş nəticə, cari göstəricilər, məhsula olan reaksiya, tapşırığın icrasına və s. aid olan və vəziyyətin yaxşılaşdırılması üçün istifadə olunan məlumat.

**Filtering** filtrdən keçirmə

Ən yaxın prioritet olmayan risklərin kənara qoyulması üçün bir sıra sualların verilməsi.

**Financial Closeout** maliyyə əməliyyatların bağlanması

Layihə ilə əlaqədar maliyyə xərclərinin təhlili və bütün maliyyə əməliyyatlarının dayandırılması.

**Financial Closure Plan** maliyyə əməliyyatların bağlanması planı

**Financial Control** büdcə dəyişikliklərinə nəzarət

**Finish Date** başa çatma vaxtı

Planlaşdırılmış əməliyyatın və ya layihənin başa çatdırılması ilə əlaqədar vaxt. Faktiki, planlaşdırılmış, gözlənilən, tez, gec, əsas, hədəf və ya cari ifadələri ilə birgə istifadə olunur.

**Finish-to-Finish** finiş-finiş

Növbəti əməliyyatın əvvəlki əməliyyat bitməmiş başa çatmasının qeyri-mümkünlüyünü qeyd edən məntiqi əlaqə.

**Finish-to-Finish Lag** finiş-finiş intervalı

İki ardıcıl əməliyyatın sonu arasındakı məcburi minimal zaman intervalı.

**Finish-to-Start** finiş-start

Növbəti əməliyyatın başlanması üçün əvvəlki əməliyyatın bitməsini tələb edən məntiqi əlaqə.

**Finish-to-Start Lag** finiş-start intervalı

Başlanan və bitmiş əməliyyatlar arasındakı məcburi minimal zaman intervalı.

**Fishbone Diagram** səbəb-nəticə (İşikava) diaqramı

**Fixed Cost** sabit xərclər

**Fixed Price Contract** sabitqiymətli və ya birdəfəyə ödənilən kontrakt

**Flexible-Cohering (Hub)** çevik-birləşdirici (hab) üslub

Çeviklik üçün qayğı; qrupun əmin-amanlığı üçün qayğı; qrup üzvlərinə və qrupa mənsub olmağına qayğı. Aşağıdakılarla xarakterizə olunur: başqalarının hissləri və fikirləri ilə maraqlanması, geniş baxışlara və uyğunlaşmağa hazır olması, müxtəlif yolla hərəkət etmək üzərində eksperiment aparması, qrupun üzvü olmaqla fəxr etməsi; çevik bir şəxs kimi tanınmasını, çoxsaylı adamları tanımasını, adamlar tərəfindən özünün tanınmasını xoşlaması.

**Float** fəaliyyətin ehtiyat vaxtı

**Flow Diagram** texnoloji marşrutun sxemi

**Force Field Analysis** faktorlar sahəsinin analizi

**Forced Analysis** layihə qrafikinin təkrar analizi

**Forcing** məcburetmə

**Formal Acceptance** qəbuletmə

Layihənin və ya onun fazasının qəbul edilməsinə dair sənəd.

**Forming** təşkiletmə

Komandanın inkişaf fazası.

**Forward Pass** düz keçid (başlanğıcdan sona)

Yerinə yetirilməmiş işlərin ən tez başlanma və bitmə vaxtlarının hesablanması.

**Forward Scheduling** layihənin verilmiş tarixdən planlaşdırılması

Verilmiş başlanma tarixi, tapşırıqların müddəti və ardıcıllığı əsasında layihənin bitmə tarixinin hesablanması.

**Free Float** sərbəst vaxt ehtiyatı

**Functional Team** funksional komanda

Eyni sahədən və ya bölmədən olan, problemlərin həlli üçün mütəmadi görüşən, bir-birinə dəstək verən, informasiyanı bölüşdürən və mütəmadi təkmilləşdirməni həyata keçirən işçilər qrupu.

# G

**Gantt Chart** Qant diaqramı

Təqvim planına (işlər cədvəlinə) aid informasiyanın qrafik təsviri. Tipik lent diaqramında əməliyyatlar və işlərin iyerarxik strukturun elementləri diaqramın sol tərəfində göstərilir, tarixlər yuxarı və ya aşağı hissəsində qeyd olunur, əməliyyatların müddəti isə üfuqi zolaqlar şəklində təsvir edilir.

**Go/No-Go** davam etmək/etməmək

**Grade 1.** növ; **2.** sort; **3.** kateqoriya

# H

**Hammock** aqreqat fəaliyyət

Layihənin həyat dövrünün seqmenti boyu əlaqəli fəaliyyətləri qruplaşdıran aqreqat və ya toplu fəaliyyət. Aqreqat əməliyyatlardan istifadə edilməsi əks olunan fəaliyyətlərin sayını azaldaraq, layihənin ümumiləşdirməsi prosesini asanlaşdırır.

**Hard Logic** zəruri məntiq

**Hard Skills** texniki vərdiş və bacarıqlar

**Helping Factors** kömək edən faktorlar

**Hindering Factors** mane olan faktorlar

**Historic Records** başa çatmış işlərə (layihəyə) aid sənədlər

Oxşar layihələrin mümkünlüyünün, tendensiya və problemlərinin proqnozlaşdırılması üçün istifadə olunan layihə sənədləri.

**Historical Estimating** keçmiş məlumata əsaslanan qiymətləndirmə

**Historical Information** keçmiş fəaliyyətə dair statistik məlumat

**House of Quality** “keyfiyyət evi”

"Keyfiyyət evi" xarici görünüşü evə oxşayan diaqramdır. Bu diaqramdan müştərinin istəkləri və məhsulun/firmanın bacrıqları arasındakı əlaqələri təsvir etmək üçün istifadə olunur. Keyfiyyət funksiyalarının strukturlaşdırılması üsulunun tərkib hissəsidir.

**Human Resource Planning** insan qaynaqlarının planlaşdırılması

**Hygiene Motivation Theory** motivasiyanın iki faktorlu nəzəriyyəsi

Herzberg-in nəzəriyyəsinə görə, işlə əlaqədər göstəricilərin bir növünün mövcudluğu işçinin məmnunluğuna səbəb olur, digər göstəricilərin mövcudluğu isə qeyri-məmnunluğa gətirir. Beləliklə, məmnunluq və qeyri-məmnunluq biri artanda o birisi azalan kontinuum deyil, ancaq bir-birindən asılı olmayan fenomenlərdir.

# I

**Idea Phase** konsepsiya fazası

**Idle Time** boş dayanma vaxtı

**Impact Analysis** təsirin təhlili

Xüsusi bir riskdən və ya hadisələr ardıcıllığından irəli gələn itkilərin və ya faydaların həcminin qiymətləndirilməsi.

**Implementation** yerinə yetirilmə

**Implementation Phase** yerinə yetirilmə fazası

**Independent Cost Analysis** gözlənilən xərclərinin müstəqil qurum tərəfindən təhlili

**Independent Cost Estimate** xərclərinin müstəqil qurum tərəfindən qiymətləndirilməsi

**Independent Event** müstəqil hadisə

**Indirect Cost** dolayı xərclər

**Infrastructure** infrastruktur

**Initial Project Plan** layihənin ilkin planı

**Initiating Processes** layihənin əsasının qoyulma prosesləri

**Initiation** **1.** əsasının formal qoyulması; **2.** inisializasiya

**Initiation Phase 1.** inisializasiya fazası; **2.** əsasının qoyulma fazası

**Input** giriş, prosesin girişi, sistemin girişi

Prosesin başlanması üçün gərək olan və layihəyə nisbətən daxili və ya xarici olan hər hansı bir element. Məsələn, məlumat, vəsait, sənəd, digər resurs və s.

**Input/Output** daxil etmə/xaric etmə

İnformasiyanın daxil edilməsi və nəticənin xaric edilməsi.

**Integrated Project Progress Report** layihənin gedişatına dair kompleks hesabat

**Interdependencies** qarşılıqlı asılılıqlar

**Interdependency Diagram** qarşılıqlı əlaqələr diaqramı

**Internal Audit** daxili audit

**Internal Control** daxili nəzarət

**Internal Failure Cost** daxili imtinaların xərcləri

**Internal Risk** daxili risk

Layihə komandasının nəzarəti altında olan risk.

**Interruptible Duration** fasiləli müddət

**Investment** kapital qoyuluşu

**Isikawa Diagram** səbəb-nəticə diaqramı

**Issue** problem

**Issues Register** problemlərin qeydiyyat vərəqi

# J

**Job 1.** tapşırıq; **2.** iş

**Job Analisis** işin təhlili

**Job Class of Employees** eyni tapşırığı yerinə yetirən işçilər

**Job Description** işin təsviri

İşin icrası üçün tələb olunan biliklər, vərdişlər, səlahiyyətlər, vəzifələr, işçi əlaqələri.

**Judicious-Competing (Red-Green)** Hüquqi-rəqabətli (qırmızı-yaşıl) üslub

Rəqabətdə intellektual inam, ədalət, qayda və düzgünlük üçün qayğı. Aşağıdakılarla xarakterizə olunur: riskləri və imkanları qiymətləndirə bilən rasional liderlik, bütün faktlar məlum olanda fəal və qətiyyətli hərəkət, düşünülmüş strategiya və proses vasitəsilə müqabillik ilə üz-üzə çıxmaq.

# K

**Key Decision Point** əsas qərar vermə mərhələsi

**Key Event 1.** əsas hadisə; **2.** mərhələ

**Key-Event Schedule** əsas mərhələlərdən ibarət təqvim planı

**Key Performance Indicators (KPIs)** fəaliyyətin əsas həlledici göstəriciləri (FƏG)

**Key Success Factors (KSFs)** müvəffəqiyyəti müəyyən edən əsas göstəricilər (MMƏG)

**Known Risk** məlum risk

Normal halda bu risk barədə məlumatı əldə etmək mümkündür; bu risk müəyyən olunmalı və nəzarət edilməlidir; bir qayda olaraq, idarə olunandır.

# L

**Lag** gecikmə

**Lagging Indicators** gecikmə ilə dəyişən göstəricilər

**Lag Relationship** gecikmə əlaqəsi

**Late Finish Date (LF)** ən gec başa çatma vaxtı

**Late Start Date (LS)** ən gec başlama vaxtı

**Lead** qabaqlama

**Lead Time 1.** sifarişin gözləmə vaxtı; **2.** gecikmə vaxtı

Sifariş və ya sorğu veriləndən sonra məhsulun, xidmətin, materialın və ya resursların əldə edilməsi üçün tələb olunan vaxt.

**Leadership Style** liderlik üslubu

**Leading Change** dəyişikliyin idarəetməsi

**Leading Teams** komandaların idarə edilməsi

**Legitimate Authority 1.** qanuni hakimiyyət; **2.** səlahiyyət

Vəzifədən irəli gələn, formal.

**Lessons Learned** toplanmış biliklər

**Lessons-Learned Review** toplanmış biliklərin təhlili

**Level Finish Schedule** fəaliyyətin planlaşdırılmış başa çatma günü

Resursların bölüşdürülməsi prosesindən istifadə edərək, fəaliyyətin dayandırılmasının planlaşdırılmış tarixi.

**Level Start Schedule** fəaliyyətin planlaşdırılmış başlanma günü

Resursların bölüşdürülməsi prosesindən istifadə edərək, fəaliyyətin başlanmasının planlaşdırılmış tarixi. Ən tez başlanma vaxtına bərabərdir və ya ondan gecdir.

**Leveling** **1.** resursun bərabərləşdirilməsi; **2.** eyni səviyyəyə gətirmə; **3.** fərqlərin aradan qaldırılması

**Leadership** liderlik

**Leadership Competencies** liderlik bacarıqları

**Leadership Paradigms** liderlik paradiqmaları (prinsipləri)

**Life Cycle** həyat dövrü

**Life Cycle Cost (LCC)** həyat dövrünün ümumi xərcləri (HDÜX)

